# DAHİ ÜZEYİR

Musiqisi eldən-elə yayılır,
Sənətilə özü dahi sayılır.
Ruhuna da ellər sevgi bəsləyir,
Dahi sənətkardır, dahi Üzeyir.

"Leyli-Məcnun", "Əsli-Kərəm" yaratdı,
Hər dastana bir abidə ucaltdı.
«Koroğlu»da görün bizə nə deyir,
Dahi sənətkardır, dahi Üzeyir.

O dünyaya Qarabağda göz açdı,
Musiqisi hər tərəfə nur saçdı.
Ellər onun nəğmələrin söyləyir,
Dahi sənətkardır, dahi Üzeyir.

Dahilərin səmasında parlayıb,
Yalnız musiqilə yadda qalmayıb.
Alimlər də onun yolun izləyir,
Dahi sənətkardır, dahi Üzeyir.

Həm müəllim, həm də alim olubdu,
Çoxunun yolunda dayaq durubdu.
İndi zaman belə dahi istəyir,
Dahi sənətkardır, dahi Üzeyir.

Deyirlər dahilər yaranır az-az,
Hər dövrdə beləlari tapılmaz.
Tapılsa da Üzeyirə tay olmaz,
Hamı ona DAHİ! DAHİ söyləyir
Dahi sənətkardır, dahi Üzeyir.

**Səadət TƏHMİRAZQIZI**
**28.06.2022.**

